# İsmayıl Safi: Zəngəzur dəhlizi bütün Türk dünyasını birləşdirəcək

***Bu gün Türkiyə–Azərbaycan qardaşlıq münasibətlərinin dünyada alternativi yoxdur. Biz, 44 günlük Vətən müharibəsində də bunun əyani şahidi olduq. Müharibə və postmüharibə dövründəki geostrateji vəziyyətlə bağlı Türkiyə Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü, sabiq millət vəkili, professor İsmayıl Safi ilə həmsöhbət olduq.***

***– İsmayıl bəy, Vətən müharibəsində Azərbaycanın parlaq qələbəsi regionda yeni reallıqlar yaratdı. Sizcə, sülhə, iqtisadi inkişafa yönəlik bu prosesin gedişatında hansı irəlilləyişlər və maneələr mövcuddur ?***

– 2020-ci il sentyabrın 27-dən etibarən 44 gün ərzində müstəqil Azərbaycan Respublikasının yeni şanlı səhifəsi yazılmağa başlandı. Azərbaycan Silahlı Qüvvələrinin cəbhənin bütün istiqamətləri üzrə düşmənə qarşı əks-hücum əməliyyatları keçirməsi və parlaq Qələbə qazanması ölkənizin müstəqillik tarixində bir ilk oldu. İşğal altındakı qardaş Azərbaycan türklərinin torpaqlarının öz doğma sahiblərinə qaytarılması ilə nəticələnən Vətən Müharibəsi tariximizin ən parlaq səhifəsinə, nəinki Azərbaycan xalqının, həm də türkiyəlilərin və bütün Türk ellərinin iftixar və qürur mənbəyinə çevrildi.

Azərbaycan xalqı öz liderinin – müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Azərbaycanın qələbəsi nəticəsində Cənubi Qafqaz regionunun xəritəsi BMT qətnamələrinə və suveren dövlətlərin ərazi bütövlüyü prinsipinə uyğun şəkildə dəyişdi. Bunun özü yeni reallıqdır. Daha sonra Ermənistanın terrorçu və aqressiv ritorikasına böyük zərbə vuruldu. Özləri haqqında yaratdığı qalib imici darmadağın oldu.

Azərbaycan–Türkiyə qardaşlıq münasibətlərində tamamilə yeni səhifə açıldı. 1918-ci ildən qəhrəman Qafqaz İslam Ordusunun Azərbaycana yardıma gəlməsindən bu yana hələ bugünə qədər onun bərabərində tutulacaq bir birlik, qardaşlıq nümayiş etdirilməmişdi. Lakin İkinci Qarabağ müharibəsində Türkiyə hər an Azərbaycanın yanında olacağını bəyan etdi və oldu da. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını ruhlandırdı və sevindirdi. Prezidentimiz çıxışlarında da deyirdi ki, Azərbaycan haqlıdır, Azərbaycan tək deyil və Türkiyə hər zaman onun yanındadır. Bu, birliyimizin, qardaşlığımızın rəmzi idi.

Lakin biz görürük ki, Ermənistan bütün bu olanlardan dərs almaq istəmir. Müharibədən sonra, xüsusilə, Üçtərəfli Bəyanatın şərtlərindən irəli gələn müddəalara əməl etmək istəmir. Məlum olduğu kimi, əgər bu müddəalara əməl olunarsa, Cənubi Qafqaz regionunda yeni iqtisadi reallıqlar yaranar, Azərbaycan, Türkiyə, Rusiya, Gürcüstan və Ermənistan da, həmçinin bu geoiqtisadi vəziyyətdən yararlana bilər. Lakin Ermənistandakı revanşist qüvvələr hələ də xülya, mif ardınca getmək istəyindədirlər.

Lakin Azərbaycan Prezidenti nə dedi ? Dedi ki, biz öz mövqeyimizi dəfələrlə bildirmişdik. Mən bir neçə dəfə öz sözümü açıq demişdim ki, biz



istəyirik Ermənistanla sülh müqaviləsi imzalansın. Ermənistan və Azərbaycan bir-birinin ərazi bütövlüyünü tanısınlar və sərhədlərin delimitasiyası, yəni, müəyyən edilməsi prosesi də başlasın. Ancaq bu günə qədər Ermənistandan müsbət cavab almamışıq. Belə görünür ki, Ermənistan buna hazır deyil, ya da bunun əleyhinədir. Mən söylədim ki, bu, böyük yanlışlıq olar və onlar özləri də peşman olacaqlar. Azərbyacan lideri qəti şəkildə bildirdi ki, əgər buna etiraz edirlərsə, açıq söyləsinlər ki, onlar Azərbaycanla sülh müqaviləsi imzalamaq istəmirlər. Belə olan halda, biz də öz siyasətimizi buna uyğun şəkildə aparacağıq. Əgər Ermənistan buna hazırdırsa, əgər Azərbaycanın bütün dünya tərəfindən tanınan ərazi bütövlüyünü tanımağa hazırdırsa, onda, əlbəttə ki, bölgəyə uzunmüddətli sülh gələcək. Biz bunu istəyirik və eyni zamanda, buna nail olmaq üçün indi konkret təkliflər də masa üzərindədir. Yolların açılması, Zəngəzur dəhlizinin yaradılması, bütün ticarət əlaqələrinin bərpası, yəni Cənubi Qafqazda uzun fasilədən sonra sülhün təmin edilməsi bizim maraqlarımıza cavab verir.

***– Sizcə vəziyyət yenidən mürəkkəbləşə bilərmi ?***

– Bu, Ermənistanın özünü necə aparacağından asılıdır. Əlbəttə, ermənilər revanşist mövqedə qalsalar, gələcəyə baxmasalar, vəziyyətin mürəkkəbləşməsi istisna olmaya bilər. Lakin Ermənistanın düşünə bilən kəsimi yaxşı dərk edir ki, yeni müharibəni nə Rusiya, nə Türkiyə, nə də Azərbaycan istəyir. Əgər vəziyyət mürəkkəbləşərsə, müharibə ehtimalı artarsa, ermənilər üçün Azərbaycan Ordusunu dayandırmaq mümkün olmayacaq. Bu isə Ermənistanın bir dövlət kimi tamamilə müflis, çarəsiz vəziyyətə düşməsinə gətirib çıxarar. Ermənistan tərəfi gec də olsa, bunu dərk etməlidir. Çünki yeni iqtisadi, siyasi reallıqdan yaranan Zəngəzur dəhlizi məsələsi onların da maraqlarına xidmət edəcək. Onlar da dəmir yolu ilə həm İranla, həm də Rusiya ilə əlaqə yarada bilərlər. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ancaq çox təəssüflər olsun ki, illərdir Ermənistanda, ermənilər arasında ifrat millətçilik, türkofobiya, azərbaycanofobiya, islamofobiya o dərəcədə insanların və hakim dairələrin beyinlərini zəhərləyib ki, onlar bunu istəsələr də, dilə gətirə bilmirlər.

***– Zəngəzur dəhlizinin açılması hazırda ən aktual məsələlərdən biridir. Yüz ilə yaxındır ki, bu dəhlizin olmaması nəticəsində Azərbaycan torpaqları faktiki olaraq iki hissəyə bölünmüşdür. Lakin indi, bu dəhlizin yaradılması realdır. Bu barədə nə deyə bilərsiniz ?***

– Zəngəzur dəhlizi, həm də Türkiyə və Azərbaycanın birbaşa, əlavə heç bir ölkədən keçmədən əlaqələrinin bərpasıdır. Bu əlaqə tarixən olub. Zəngəzur qədim Azərbaycan, türk torpağıdır. Bölgənin adı belə türk Zəngi tayfalarının adı ilə əlaqədardır. Sovet İttifaqı dönəmində, zorla Azərbaycandan qoparılan bu torpaq Naxçıvan bölgəsini faktiki olaraq təcrid vəziyyətə gətirmiş, ana torpaqdan aralı salmışdır. Lakin qalibiyyətin böyük cəhətlərindən biri də budur ki, Zəngəzur dəhlizi məsələsi gündəmə gəlmiş, danışıqlar masası səviyyəsinə qaldırılmışdır. Zəngəzur dəhlizi bütün Türk dünyasını birləşdirəcək.

Azərbaycan Prezidentinin müvafiq fərmanına əsasən, Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması, ifadələrində mütəmadi olaraq Şərqi və Qərbi Zəngəzur adını qeyd etməsi göstərir ki, Azərbaycanın artıq Zəngəzurla bağlı yeni, davamlı və qətiyyətli siyasəti yaranmışdır. Məlumdur ki, Şərqi Zəngəzur azad edilsə də, onun qərbi Ermənistanın tərkibindədir. Dəhliz də Zəngəzurun qərb hissəsindən keçəcək. Bu baxımdan, Naxçıvanla Azərbaycanın digər bölgələri arasında bufer zonaya çevrilən bu bölgədən nəqliyyat dəhlizlərinin yaradılması mütləqdir. Ümid edirəm ki, bu məsələ də tezliklə yoluna qoyulacaq. Sadəcə olaraq İlham Əliyevin təbirincə desək, Ermənistanda cəmiyyət və hakimiyyət, təbii ki, indi çox çətin bir psixoloji durumdadır. Çünki onların otuz il ərzindəki ideoloji sütunları yıxıldı, mifologiya darmadağın edildi. Erməni ordusunun "müzəffər ordu" olması barədə mifi 44 gün ərzində yerlə-yeksan edildi. Onların ərazi iddiaları məhv oldu. Bəli, bunu onlar dərk etməlidirlər. Anlamalıdırlar ki, Azərbaycan həm güclü dövlətdir, həm də Azərbaycanın haqq işinin yanında hər zaman böyük Türkiyə olacaqdır. Bu, dəyişməz aksiomdur. Əlbəttə, Rusiyadan da gözləntilər var. Əsas odur ki, üçtərəfli Bəyanatın bütün müddəaları yerinə yetirilsin. Çünki bu üçtərəfli Bəyanatı Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri imzalayıblar və şərtlərin böyük qismi artıq gerçəkləşib. Amma bəzi məsələlər var ki, hələ də açıqdır. Gözlənti bundan ibarətdir.

***– Azərbaycan və Türkiyə dövlət başçıları arasında tarixi Şuşa Bəyannaməsi imzalandı. Bu, regionda yeni ittifaq sayıla bilərmi ?***

– Bizim müttəfiqliyimiz onsuz da ittifaq səviyyəsində idi. Bu müttəfiqlik təbii əsaslara söykənirdi. Çünki biz qardaş xalqlarıq, qardaş dövlətlərik. Lakin 27 ildən sonra azad edilən tarixi Şuşa şəhərində təntənəli şəkildə bu bəyanatın imzalanması Azərabaycan–Türkiyə müttəfiqliyini ən yüksək səviyyədə rəsmiləşdirdi. Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr çoxşaxəlidir və bütün sahələri əhatə edir. İki ölkə arasında imzalanmış strateji əməkdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə beynəlxalq aləmdə bir daha təsdiqlədi ki, Türkiyə ilə Azərbaycan daim hər sahədə çiyin-çiyinədir. Beynəlxalq platformalarda da iki ölkə sanki bir dövlət kimi hərəkət edir və bir-birini dəstəkləyir. Ulu öndər Heydər Əliyevin də dediyi kimi, "Bir millət, iki dövlət" kəlamı həyatın bütün sahələrində özünü təsdiq etməkdədir. Şuşa Bəyannaməsi bir daha göstərdi ki, gələcək bütün siyasi, hərbi, iqtisadi hərəkətlənmələrdə Türkiyə öz ən yaxın müttəfiqi olan Azərbaycanı birmənalı olaraq dəstəkləyəcək. Bunun özü də regionda yeni reallıqların ərsəyə gəlməsinin sübutudur. Bizim bu müttəfiqliyə dost və qardaş Pakistan da qoşulmuşdur. Məlum olduğu kimi, hər üç ölkənin parlamentləri səviyyəsində də Bakı Bəyannaməsi imzalandı. Bakı Bəyannaməsi Şuşa Bəyannaməsinin prinsiplərini bir qədər də qüvvətləndirdi. Bütün bu bəyanatlar yalnız və yalnız birliyimizin xeyrinə olan addımlardır.

***– İsmayıl bəy, Türkiyənin hakim Ədalət və İnkişaf, Azərbaycanın Yeni Azərbaycan partiyaları arasında da əməkdaşlıq yeni mərhələyə qədəm qoymuşdur. Bu barədə də fikirlərinizi bilmək maraqlı olardı.***

– Bəli, bizim hakim partiyaların əlaqələri hər zaman yüksək olmuşdur. Lakin son zamanlar bu əlaqələrdə də yeni səhifələr açılıb. Türkiyənin Ədalət və İnkişaf Partiyası – Yeni Azərbaycan Partiyası əməkdaşlığı çərçivəsində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Azərbaycan – Türkiyə, bir millət, iki dövlət: Qarabağ zəfəri sonrası reallıqlar və uydurma erməni soyqırımı açıqlamasının regionda sülhə və stabilliyə təsirləri" mövzusunda keçirilən son videokonfransda da bu barədə geniş söhbət açılıb. Bu kimi konfranslar hakim AKP və YAP əməkdaşlığının daha da güclənəcəyinə əminlik yaradır. İnanırıq ki, bu tədbirlərin nəticələrinin hər iki partiya və ölkə üçün xeyirli olacaq, iki ölkə arasındakı məsafə uzaq olsa da, belə tədbirlərin ortaq məsələlərdə könül və fikir birliyinin daha da möhkəmləndirilməsində əhəmiyyəti yüksələcək.

***Müsahibəni qələmə aldı:***

***Anar TURAN, "Xalq qəzeti"***